**Leyla Həsənova**
**Xumara Fleydanova**

# AZƏRBAYCAN DİLİ SINAQLAR TOPLUSU

***6-cı sinif***

**BAKI – 2026**

# SINAQ 1

## ÖMRÜN ƏN GÖZƏL ANLARI

Şagirdlərimə xoşbəxtlik barədə fikirlərini yazmağı tapşırmışdım. Onlara demişdim ki, ən xoşbəxt anları barədə düşüncələrini yazsınlar. Tapşırığı alan uşaqların bir qismi artıq mövzu barədə düşünməyə başlamışdı.

Ən yaxşı oxuyan şagirdlərdən olan Nuranə soruşdu:

– Müəllim, ən xoşbəxt olduğum anları rəsm çəkərək göstərə bilərəmmi?

– Təbii ki, qızım, fikrini istədiyin kimi ifadə edə bilərsən, – dedim.

Nuranədən sonra Cəmilə, Təranə, Jalə, Murad və Ülkər də fikir və düşüncələrini rəsm vasitəsilə ifadə edəcəklərini bildirdilər. Hər kəsə icazə verdim ki, istədikləri vasitədən istifadə edə bilərlər. Arxa sırada oturan Səbinə əlini qaldıraraq:

– Müəllim, mən düşüncələrimi şeir vasitəsilə ifadə etmək istəyirəm, – dedi.

Uşaqlardan maraqlı cavablar gözləyirdim. Artıq hər kəs işə başlamışdı. Kimisi başını əlləri arasına alıb fikirləşir, kimisi nəyisə xatırlamağa çalışır, kimisi də kağızı fırçalayırdı. Hamının həvəslə çalışmasını müşahidə etmək bir müəllim kimi məni olduqca sevindirirdi. Şagirdlərin gözlərindəki parıltını sezmək çətin deyildi.

Bu vaxt orta sırada əyləşən Dilarə diqqətimi çəkdi: o ağlayırdı. Yavaşca ona yaxınlaşdım. Ağlamağının səbəbini soruşsam da, o cavab vermədi, hıçqıra-hıçqıra ağlamaqda davam etdi. Yenə soruşdum:

– Dilarə, niyə ağlayırsan? Səbəbini mənə deməyəcəksən?

– Heç, elə-belə...

Elə-belə ağlamadığını bilirdim. Buna görə də onu sinifdən çıxarıb boş otaqlardan birinə apardım.

– Dilarə, indi ağlamağının səbəbini mənə de, bəlkə bir köməyim dəydi.

O, bir qədər də ağladıqdan sonra:

– Müəllim, axı siz mənə kömək edə bilməzsiniz, – dedi.

– Haradan bilirsən? Dərdini demədən dərman tapa bilməzsən. Əvvəlcə göz yaşlarını sil, sonra ağlamağının səbəbini de.

Dilarə göz yaşlarını sildikdən sonra danışmağa başladı:

– Müəllim, mənim əmimin adı Vaqif, bibimin adı Zəhradır. Hər ikisi uşaqlıqda sümük xəstəliyi keçiriblər. Buna görə də gəzə bilmirlər. Ötən tətili onların yanında keçirdim. Onlarla birlikdə idman edirdim. İdmanın köməkliyi sayəsində hər ikisinin barmaqları hərəkət etməyə başladı. Əvvəllər əllərini yumruq kimi bükə bilmirdilər, idman etdikdən sonra bunu bacardılar. Onlar məni çox sevirlər və mənim yanımda xoşbəxt görünməyə çalışırlar. Ancaq...

Dilarə yenidən ağlamağa başladı. Bir neçə dəqiqə heç birimiz danışmadıq. Onun hıçqırıqları kəsildikdə mən sözə başladım:

– İnsanlar xoşbəxt olmaq üçün arzularının reallaşmasını istəyirlər. Əslində, sağlam olmalarının xoşbəxtlik üçün yetərli olduğunu düşünmürlər. Əmin və bibin yaxşı insanlardır. Xəstə olmalarına baxmayaraq, xoşbəxt olmağı bacarıblar. Onlar hamımıza nümunə olmalıdırlar. Ancaq sən ağlayaraq onların xoşbəxtliyinə əngəl olursan.

– Necə?

– Bax, necə bilirsən, əmin və bibin sənin onlar üçün ağladığını bilsələr, məyus olmazlarmı?

– Olardılar, müəllim.

– Onda ağlama və onları da məyus etmə.

– Oldu.

– Get əl-üzünü yu, sinfə qayıt və tapşırığı tamamla.

Dilarə əl-üzünü yuyub sinfə qayıtdı və yerində oturdu. Onun nə yazdığını səbirsizliklə gözləyirdim. Görəsən, göz yaşlarının islatdığı kağıza nə yazacaq?..

Dərs qurtardı. Hər kəs yazısını təhvil verdi. Dilarə də yazısını gətirdi. Oxudum. O, əmisinin və bibisinin yeriməyə başlayacaqları günün ömrünün ən xoşbəxt anı olacağını yazmışdı.

**1. Müəllimin şagirdlərə verdiyi tapşırığın əsas məqsədi nə idi?**
A) şagirdlərin rəsm çəkmə qabiliyyətini yoxlamaq
B) şagirdlərin xoşbəxtlik haqqında düşüncələrini öyrənmək
C) şagirdlərə şeir yazmağı öyrətmək
D) şagirdlərin ailə vəziyyəti haqqında məlumat toplamaq

**2. Mətndəki hansı obraz öz fikirlərini ifadə etmək üçün digərlərindən fərqli bir yol (yaradıcılıq növü) seçmişdir?**
A) Nuranə
B) Səbinə
C) Dilarə
D) Ülkər

**3. Müəllim nəyə görə Dilarəni sinifdən çıxarıb boş otaqlardan birinə apardı?**
A) Tapşırığı yerinə yetirmədiyi üçün onu cəzalandırmaq istədi.
B) Onunla təklikdə danışıb ağlamağının səbəbini öyrənmək istədi.
C) Dilarənin sinif yoldaşlarını narahat etməsinin qarşısını almaq istədi.
D) Dilarəyə xüsusi bir tapşırıq vermək istədi.

**4. Dilarənin əmisi və bibisi haqqında verilən məlumatlardan hansı doğrudur?**
A) Onlar Dilarənin ağlamasına görə çox məyus idilər.
B) Uşaqlıqda keçirdikləri xəstəlik səbəbindən hərəkət məhdudiyyətləri var idi.
C) Onlar Dilarə ilə birlikdə idman etməkdən imtina edirdilər.
D) Onlar hər zaman şikayət edən və bədbəxt insanlar idilər.

**5. Müəllimin Dilarəyə verdiyi "Onlar hamımıza nümunə olmalıdırlar" fikrini necə izah etmək olar?**
A) onlar çox peşəkar idmançı olduqları üçün
B) fiziki çətinliklərinə baxmayaraq, xoşbəxt olmağı bacardıqları üçün
C) Dilarəyə dərslərində kömək etdikləri üçün
D) çox gözəl rəsm çəkə bildikləri üçün

**6. Mətnin sonuna əsasən, Dilarə üçün "ömrün ən xoşbəxt anı" nə olacaqdı?**
A) müəllimdən yüksək qiymət alacağı gün
B) sinif yoldaşları ilə birlikdə gəzintiyə çıxacağı gün
C) əmisi və bibisinin yeriməyə başlayacağı gün
D) müəllimin onun rəsmini bəyəndiyi an

**7. Mətnin hissələri (giriş, əsas hissə, sonluq) haqqında hansı fikir doğrudur?**
A) Giriş hissədə Dilarənin bibisi və əmisinin xəstəliyi haqqında danışılır.
B) Əsas hissədə müəllimin şagirdlərə tapşırıq verməsi təsvir olunur.
C) Mətnin sonluğunda Dilarənin xoşbəxtlik haqqında yekun düşüncəsi və arzusu öz əksini tapır.
D) Giriş hissədə müəllimlə Dilarənin boş otaqdakı söhbəti verilir.

**8. Müəllim Dilarəni ağlamaqdan çəkindirmək üçün hansı üsuldan istifadə etdi?**
A) Ona gözəl qiymət verəcəyini vəd etdi.
B) Ağlamağının əmisi və bibisini məyus edə biləcəyini başa saldı.
C) Sinif yoldaşlarının ona güləcəyini bildirdi.
D) Ona yeni bir rəsm albomu hədiyyə etdi.

**9. Mətndəki hansı cümləni mətnin ideyası (əsas qayəsi) kimi qəbul etmək olar?**
A) Dilarə əl-üzünü yuyub sinfə qayıtdı.
B) Hər kəs öz yazısını təhvil verdi.
C) Əslində sağlam olmalarının xoşbəxtlik üçün yetərli olduğunu düşünmürlər.
D) Müəllim, mən düşüncələrimi şeir vasitəsilə ifadə etmək istəyirəm.

**10. Hadisələrin ardıcıllığını müəyyən edin.**
1. Müəllim xoşbəxtlik mövzusunda tapşırıq verir.
2. Dilarə öz yazısını müəllimə təhvil verir.
3. Müəllim Dilarənin ağladığını görüb onunla təklikdə söhbət edir.
4. Dilarə əmisi və bibisinin fiziki çətinlikləri barədə danışır.
A) 1, 3, 4, 2
B) 1, 4, 3, 2
C) 3, 1, 4, 2
D) 1, 2, 3, 4

## ARXİMED VƏ SİRAKUZUN MÜDAFİƏSİ

Bu hadisə miladdan əvvəl 212-ci ildə baş vermişdir. Böyük alim Arximed 70 yaşını adlamış, qohumlarından biri – Sirakuz kralı Heron isə ölmüşdü. Bu zaman romalılar ordu ilə Sirakuz üzərinə hücuma keçdilər.

Yaşlı Arximed isə çalışmaları ilə məşğul olur, heç bir zaman qatılmadığı siyasətdən uzaq, sakit həyat yaşayırdı. Amma ağlı və zəkasına heyran olan həmşəhərliləri şəhərin müdafiəsi üçün ondan kömək istədilər. Arximed bunu könülsüz də olsa, qəbul etdi.

Günlərin birində sahil sularına kimi soxulmuş Roma gəmisi birdən-birə ildırım kimi qorxunc bir “kəlbətin”lə qarşılaşdı. Divarların arxasından çıxan bu alət gəmini yaxalamış kimi çənələri arasına sıxaraq dağıtdı. Qaldırıcı qollar və dönən çarxlar vasitəsilə işləyən bu alətin iş prinsipini Arximed hazırlamışdı.

Yeri gəlmişkən, qala divarlarının arxasında yerləşdirilmiş nəhəng mancanaqlardan düşmən üzərinə ağır oxlar və daşlar yağdırılırdı, nəticədə düşmən ağır itkilər verirdi. Arximedin günəş şüalarını nəhəng ayna vasitəsilə düşmən üzərinə yönəldərək gəmiləri yandırdığı da söylənilir.

Arximedin icad etdiyi cihazlar romalıların gözlərini o qədər qorxutmuşdu ki, suyun üstündə bir ip, ya da dəyənək görəndə belə onu bir cihaz sayaraq geri çəkilirdilər. Romalılar istər-istəməz heyran qaldıqları düşmənləri ilə öz mühəndislərinin var-gəlini görüb belə düşünürdülər: “Bu riyaziyyatçı dahi ilə niyə savaşırıq? Bizimlə zarafat edirmiş kimi sahildə oturub donanmamızı məhv edir”.

Bütün bunlara baxmayaraq, miladdan əvvəl 212-ci ildə romalılar Sirakuzu işğal etdilər və şəhərin digər sakinləri kimi Arximedi də öldürdülər. Belə söyləyirlər ki, romalılar şəhərə daxil olanda Arximed qum üzərində çəkdiyi çevrələrlə hesablamalar aparırmış. O, əlində qılınc yaxınlaşan romalı əsgərə səslənərək: “Lütfən, çevrələrimi pozmayın!” – demişdir. Lakin əsgər onun sözlərinə əhəmiyyət verməmiş və Arximedin vurulmuş başı çəkdiyi çevrələrin arasına düşmüşdür.

**1. Verilmiş plan bəndlərindən biri mətnə aid edilə bilməz:**
A) Arximedin həyatı və Sirakuzla bağlılığı
B) Romalıların Sirakuza hücumu
C) Arximedin icadlarının şəhərin müdafiəsində rolu
D) Arximedin Romada müəllimlik fəaliyyəti

**2. Mətnə görə romalılar Sirakuzu nə etdilər?**
A) şəhərlə müqavilə bağladılar
B) şəhəri işğal etdilər
C) Arximedi ölkələrinə apardılar
D) şəhəri tərk etdilər

**3. Arximed şəhərin müdafiəsinə necə kömək edirdi?**
A) əsgərlərlə birlikdə döyüşürdü
B) müdafiə qurğuları və silahlar hazırlayırdı
C) şəhər əhalisini gizlədirdi
D) Romalılarla danışıqlar aparırdı

**4. Aşağıdakılardan hansı mətnə uyğun deyil?**
A) Arximed 70 yaşında idi.
B) O, sakit həyat yaşayırdı.
C) Arximed romalıların tərəfini saxlayırdı.
D) Onun icadları düşməni qorxuya salmışdı.

**5. "Uzaq məsafəyə ağır daş atan döyüş qurğusu" mənasına uyğun gələn söz hansıdır?**
A) ayna
B) mancanaq
C) qaldırıcı qol
D) gəmi

**6. "Arximedin icadları romalılar üçün gözlənilməz idi" cümləsini mətnin hansı hissəsinə əlavə etmək daha məqsədəuyğundur?**
A) Arximedin yaşı haqqında məlumatdan sonra
B) müdafiə qurğularının təsvirindən sonra
C) Arximedin öldürülməsi hissəsindən sonra
D) mətnin əvvəlində

**7. Mətndən hansı nəticəyə gəlmək olar?**
A) Arximed yalnız nəzəri alim idi.
B) Onun bilikləri şəhərin müdafiəsində faydalı olmuşdur.
C) Romalılar Arximedi qoruyurdular.
D) Şəhər heç bir müqavimət göstərməmişdi.

**8. Romalı əsgər Arximedi nə üçün öldürdü?**
A) Arximed ona hücum etdiyi üçün
B) o, döyüşü idarə etdiyi üçün
C) Arximed əsgərin sözlərinə məhəl qoymadığı üçün
D) şəhərdən qaçmaq istədiyi üçün

**9. Arximedin hansı icadı haqqında mətndə xüsusi olaraq qeyd edilir?**
A) su saatı
B) günəş şüalarını yönəldən nəhəng ayna
C) kağız istehsalı
D) kompas

**10. Mətnin əsas ideyası nədir?**
A) romalıların hərbi gücü
B) Sirakuzun zəif müdafiəsi
C) Arximedin zəkası və icadlarının şəhərin müdafiəsində rolu
D) qədim şəhərlərin tarixi

## HƏR GÜN BİR STƏKAN SÜD

Dünyaya gəldiyimiz andan etibarən yaşaya bilməyimiz üçün havadan sonra ən gərəkli olan maddə süddür. Hər birimiz bəzən bir il, bəzən də daha çox müddətə ana südü ilə qidalanırıq. Südün tərkibində A və B2 vitaminləri ilə yanaşı, dəmir, mis, kalsium duzları və heyvan mənşəli proteinlər inkişafımızda əsas rol oynayır. Süddəki kalsium isə sümüklərin böyüməsinə və möhkəmlənməsinə dəstək olur. Hətta erkən yaşlarda mütəmadi içilən süd sonralar sümük əriməsi probleminin qarşısını alır. Bütün bunlara görə faydası bitməyən süd hər bir uşağın və yeniyetmənin əsas qidalarından biridir. Araşdırmalara görə, uşağın sağlam böyüməsində mühüm rol oynayan süd çox zəngin qidadır. Belə ki, 100 qram süddə 87,2 qram su, 3,3 qram protein, 3,8 qram yağ, 4,8 qram karbohidrat, kalsium, fosfor, natrium, kalium, xlor, maqnezium, mis, sink, dəmir və manqan vardır. Kazein adlı protein təbiətdə yalnız südün tərkibindədir.

Uşaqlıq dövrünün ilk illərində süd orqanizmdə baş verə biləcək sümük xəstəliklərinin qarşısını almağa kömək edir. A və B2 vitaminləri baxımından çox zəngin olan süd gözlərin daha yaxşı görməsinə və qorunmasına səbəb olur. İnsanın həzm və sinir sisteminin sağlamlığında da südün rolu böyükdür. Süd orqanizmdəki qorxulu xəstəliklərə səbəb olan bəzi bakteriyaların çoxalmasının da qarşısını alır. Eyni zamanda süd bədənimizi enerji, protein və müxtəlif vitaminlərlə təmin edir, dişləri çürüməkdən qoruyur, digər xəstəliklərə qarşı müqavimətimizi artırır.

**1. Verilmiş plan bəndlərindən biri mətnə aid edilə bilməz:**
A) südün tərkibində olan vitamin və minerallar
B) südün uşaqların sağlam böyüməsində rolu
C) süd istehsalının iqtisadi əhəmiyyəti
D) südün insan orqanizminə təsiri

**2. Mətnə görə südün əsas faydalarından biri hansıdır?**
A) İnsan orqanizmini zəiflədir.
B) Sümüklərin möhkəmlənməsinə kömək edir.
C) Yalnız böyüklər üçün faydalıdır.
D) Tərkibində vitamin yoxdur.

**3. Mətnə görə 100 qram südün tərkibində hansı maddə daha çoxdur?**
A) yağ
B) protein
C) su
D) karbohidrat

**4. Mətnə əsasən belə nəticəyə gəlmək olar ki:**
A) Süd yalnız uşaqlıq dövründə içilməlidir.
B) Süd müxtəlif xəstəliklərin qarşısının alınmasına kömək edir.
C) Süd insan üçün vacib deyil.
D) Südün tərkibi bütün qidalardan kasıbdır.

**5. Mətnin əsas məqsədi nədir?**
A) südün satışını artırmaq
B) südün hazırlanma qaydasını izah etmək
C) südün insan sağlamlığı üçün faydalarını göstərmək
D) süd məhsullarının növlərini sadalamaq

# SINAQ 2

## FİDANIN NAĞILI

Bu dünyadan artıqlaması ilə qismətini almış, varlı və güclü olan bir adam atına minib yaydan siyrilmiş ox kimi cövlan edirdi. At sanki uçur və arxasınca böyük toz buludu buraxırdı.

Bir müddətdən sonra atı da yoruldu, sahibi də. O, dincəlmək üçün atın yüyənini çəkdi. Atlı bir qədər getdikdən sonra yolun kənarında saçı-saqqalı ağarmış, beli bükülmüş qocanın işlədiyini gördü. Marağı ona güc gəldi. Buna görə də atını oraya sürdü və salam verdi. Qoca salamı aldı və sonra yenə işinə davam etdi – əlindəki meyvə ağacının tingini torpağa basdırmağa başladı.

Atlı qocaya dedi:

– Sizə kömək lazımdırmı?

– Sağ ol, – deyə yaşlı adam torpağı qazmaqda davam etdi. Amma hiss olunurdu ki, qoca çox yorulub.

Atlı oturub qocanın işləməsinə xeyli baxdı. Axırda özünü saxlaya bilməyib soruşdu:

– Əmi, çox qocalmısan. Yəqin ki, bu ağacların məhsulunu görməyəcəksən. Bunu bilə-bilə niyə özünü bu qədər üzürsən?

İxtiyar fidanı qazdığı çalaya qoyub əlləri ilə ətrafını torpaqla doldurdu və dedi:

– Bir vaxt kimlərsə ağac əkdi, becərdi, bəlkə də, çoxu heç yetişdirdiyi məhsuldan yemədi. O meyvələri biz yedik, o ağacların kölgəsində biz dincəldik, təmizlədiyi havanı biz udduq... İndi mən də o borcu ödəyir, ağac əkirəm...

Qocanın sözləri atlıya bərk təsir etdi. O, xeyli fikirləşəndən sonra ayağa durdu və atının tərkindəki heybəsindən bir kisə qızıl çıxarıb:

– Xahiş edirəm, bunu götürün. Siz bundan çoxuna layiqsiniz, amma yanımda olan bu qədərdir, – dedi.

İxtiyar dolçasındakı suyu əkdiyi ağacın dibinə töküb rahatlandı. O, bir daha basdırdığı fidana baxdı və sanki gözləri daha da işıqlandı. Bundan sonra əlinin arxası ilə alnından süzülən tər damcılarını sildi və bardaş quraraq oturdu. Sonra o, qızıl kisəsinə və qarşısındakı adama baxdı. Hər ikisi duyğulanmışdı...

Qoca durub qızıl kisəsini aldı və dedi:

– Bax, övladım, mənim əkdiyim ağacın ilk meyvəsi budur. Nə qədər xərcləsəm bəs edər. Ömrüm boyu çalışsaydım qazana bilməzdim, amma əkdiyim bir meyvə tingi mənə bu qədər qızıl bəxş etdi...

Atlı əyilib qocanın əlini öpdü, ona cansağlığı dilədi və sonra "yolçu yolda gərək" deyib atına mindi.

İxtiyar düzənlikdə kiçilə-kiçilə gözdən itən atlının arxasınca baxdı. Az sonra ayağa durub: "İşimizi davam etdirək", – deyib yeni bir fidanı əkmək üçün torpağı qazmağa başladı.

**1. Verilmiş plan bəndlərindən biri mətnin məzmununa aid edilə bilməz:**
A) atlının qocaya kömək təklif etməsi
B) qocanın ağac əkməkdə məqsədini açıqlaması
C) atlının qocanın müdrikliyindən təsirlənməsi
D) qocanın qızılları götürüb şəhərə köçməsi

**2. Mətndə işlənmiş "ting" sözünün lüğəvi mənası hansı variantda düzgün verilmişdir?**
A) torpağı qazmaq üçün istifadə olunan itiuclu metal alət
B) meyvə ağacı və ya digər bitkilərin əkilmək üçün hazırlanmış fidanı
C) atın belinə bağlanan və yük daşımaq üçün istifadə olunan torba
D) qədim dövrlərdə pul vahidi kimi işlədilən qızıl sikkə

**3. Mətnə əsasən hansı fikir doğrudur?**
A) Qoca ağacın meyvəsini özü yemək üçün tələsirdi.
B) Atlı qocanı ilk görəndə onun zəhmətinə böyük hörmətlə yanaşdı.
C) Qoca gələcək nəsillər üçün xeyirli bir iş görməyə çalışırdı.
D) Atlı qocaya qızılları ona borclu olduğu üçün verdi.

**4. Mətndə "yol" sözü həqiqi mənada işlənmişdir. Aşağıdakı cümlələrin hansında "yol" sözü fərqli mənada (məcazi/çoxmənalı) işlənmişdir?**
A) Kəndə gedən yol çox kələ-kötür idi.
B) Biz bu məsələni həll etməyin bir yolunu tapmalıyıq.
C) Yolun kənarında qoca bir kişi ağac əkirdi.
D) Atlı tozlu yolla sürətlə irəliləyirdi.

**5. Qocanın "Mənim əkdiyim ağacın ilk meyvəsi budur" deməkdə məqsədi nə idi?**
A) Ağacın həmin dəqiqə meyvə verdiyini sübut etmək.
B) Müdrikliyinin və zəhmətinin ona dərhal qazanc gətirdiyini bildirmək.
C) Atlını aldadaraq ondan daha çox qızıl almaq.
D) Əkdiyi tingin sehrli olduğunu nümayiş etdirmək.

**6. "Atlı qocanın bu sözlərindən sonra onun əlini öpdü" cümləsini mətnin hansı hissəsinə əlavə etmək olar?**
A) Qoca "sağ ol" deyib torpağı qazmağa davam etdiyi hissədən sonra.
B) Atlının "Sizə kömək lazımdırmı?" sualından dərhal əvvəl.
C) Qocanın "İndi mən də o borcu ödəyir, ağac əkirəm" sözlərindən sonra.
D) Mətnin ən sonunda, atlı uzaqlaşdıqdan sonra.

**7. Mətnin məzmununa əsasən hansı qənaətə gəlmək olmaz?**
A) İnsan yalnız özü üçün deyil, başqaları üçün də yaşamalıdır.
B) Zəhmət və müdriklik hər zaman qiymətləndirilir.
C) Yaşlı insanlar fiziki iş görməkdən uzaq durmalıdırlar.
D) Həyatda hər bir yaxşılığın qarşılığı vardır.

**8. Mətndəki atlı obrazı haqqında hansı fikri söyləmək olar?**
A) Sərt və amansız bir hökmdardır.
B) Səhvini anlamağı və müdrikliyə dəyər verməyi bacaran biridir.
C) Təbiəti sevməyən və ağacların kəsilməsini istəyən biridir.
D) Qocanın zəifliyindən istifadə edib ona gülən biridir.

**9. Mətndə altından xətt çəkilmiş "duyğulanmışdı" sözünün tərkibinə görə təhlili hansı variantda düzgün verilmişdir?**
A) kök (duy), 2 leksik, 2 qrammatik şəkilçi
B) kök (duyğu), 1 leksik, 2 qrammatik şəkilçi
C) kök (duy), 1 leksik, 3 qrammatik şəkilçi
D) kök (duyğulan), 2 qrammatik şəkilçi